# CƏLİLABAD: YOL İNFRASTRUKTURU YENİDƏN QURULUR

Ölkəmizdə yol tikintisi dövlət başçısı cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Regional Dövlət proqramlarına nəzər salarkən bir daha yəqin edirik ki, dövlətimiz son illərdə yol infrastrukturunun inkişafına xüsusi diqqət yetirir. Demək olar ki, hər gün yeni yolların, körpülərin istifadəyə verilməsinin şahidi oluruq. Yol infrastrukturunun yeniləşdirilməsi sahəsində dövlət siyasətinin başlıca məqsədi nəqliyyatın səmərəli işinin və əhalinin rahatlığının təmin olunmasından, sərnişinlərin nümunəvi nəqliyyat xidməti ilə təmin edilməsindən ibarətdir.



Ölkənin yol sektorunda aparılan köklü yenidənqurma və təmir-bərpa işlərinin yüksək vüsəti bölgələrə də sirayət etmiş, bu sırada yollara xidmət, küçə və meydanların asfaltlaşdırılması xeyli yaxşılaşdırılmışdır. Cəlilabad rayonunda da yolların təmiri, yeni şəhərdaxili və kəndarası yolların çəkilməsi, yol nişanları, yol çiyinlikləri və digər zəruri avadanlıqlarla təchizat diqqət mərkəzində durur.

Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev avqust ayında Cəlilabad rayonuna səfəri çərçivəsində 21 kilometrlik Alar-Təzəkənd-Üçtəpə-Əliqasımlı-Cəfərxanlı avtomobil yolunun açılışını etmişdir. Yolun inşasına Prezidentin sərəncamı ilə ayrılmış 2 milyon manat vəsait hesabına 2013-cü ildə başlanılmışdır. 23 mindən artıq insana xidmət edən yol dördüncü texniki dərəcəlidir, buraya 130 min kvadratmetr ikiqat asfalt döşənib.

Son illərdə rayonda yol çəkilişinə dair 3 iri layihə həyata keçirilmiş, təqribən 100 min nəfərlik əhalinin yaşadığı 60-a yaxın yaşayış məntəqəsinə rahat yollar çəkilmişdir. Bu cəhətdən "UKT İnşaat-Servis" MMC-nin işi ürəkaçandır. 2011-ci ildə yaradılmış müəssisədə 40 nəfər işçi çalışır. Kollektiv 17 kilometrlik Cəlilabad-Sadatlı, 34 kilometrlik Qarazəncir-Bayxanlı, 21 kilometrlik Alar-Üçtəpə, 10 kilometrlik Astanlı-Soltankənd yollarının çəkilişində fəal iştirak etmişdir. Həmin yolların çəkilməsi hamını sevindirir.



Tikinti işlərində 80 ədəd müxtəlif markalı texnikadan istifadə olunur. Beton konstruksiyalar, su ötürücüləri, körpü sütunları obyektə vaxtlı-vaxtında çatdırılır. "UKT İnşaat-servis" MMC-nin kollektivi həmçinin Sənqaçal-Qızıldaş, Ucar-Kürdəmir, Yevlax-Goran yollarında da yol inşaat işlərini həyata keçirmişlər. İşçilər üçün hər cür iş və məişət şəraiti yaradılıb, onlara gündə 3 dəfə pulsuz yemək verilir. Yük daşıyan avtomobil sürücülərinin orta aylıq əmək haqqı 450-500 manata çatır. Mexanizatorların və ağır texnikada işləyən işçilərin isə orta aylıq əmək haqqı 900-1000 manat təşkil edir.

Yol tikinti şirkətinin rəhbəri Şəmsəddin Məmmədov bizimlə söhbətində onu da qeyd etdi ki, ölkəmizin rəhbəri cənab İlham Əliyev rayonumuzda olarkən demişdir ki, "Son illərdə Cəlilabadda həm iqtisadi, həm sosial sahədə çox böyük işlər görülür, gözəl obyektlər tikilir. Rayon sürətlə inkişaf edir. Cəlilabad rayonu əhalisinin böyük əksəriyyətinin kəndlərdə yaşadığına görə yolların, o cümlədən kənd yollarının yenidən qurulmasının xüsusi əhəmiyyəti var".

Ölkə başçısı yol infrastrukturunu yaxşılaşdırmaq məqsədilə bütün tədbirlərə diqqəti artırmağı tapşırmış, konkret tapşırıqlar vermişdir. İndi yeni yolların çəkilişi ilə yanaşı, köhnə yolların təmiri, yaşıllıq zolaqlarının salınması vacib məsələyə çevrilmişdir. Bizim müəssisənin yaxından iştirakı ilə bundan sonra da yol çəkilişi sahəsində həyata keçiriləcək tədbirlər genişləndiriləcək, yollara xidmətin keyfiyyəti yaxşılaşdırılacaqdır.

Biz təcrübəli yol çəkənlərin söylədiklərinə inanırıq. İnanırıq ki, yol-inşaat işçiləri bundan sonra da fəallıqla çalışacaq, verdikləri sözün üstündə möhkəm duracaq, el-obanı öz yaxşı əməlləri ilə sevindirəcəklər.

**Sabir MUSTAFAYEV,**
**"Respublika".**